## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

### Məhəmməd Füzulinin heykəlləri

### Bakı şəhərindəki heykəli (1958-1963)




1958-ci ildə orta əsrlər Azərbaycan şairi Məhəmməd Füzulinin ölümünün 400 illiyi münasibətilə şairin abidəsinin yaradılması üçün müsabiqə elan edilir.

Vaxtilə İ. E. Repin adına Sankt-Peterburq Dövlət Akademik Rəssamlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda bir yerdə təhsil almış Tokay Məmmədov və Ömər Eldarovun memar Hacı Muxtarovla bir yerdə hazırladıqları layihə müsabiqədə qalib gəlir.

Abidənin açılışı 1963-cü ildə baş tutur.

Məhəmməd Füzulinin heykəli qranit postament üzərində ucalan bürünc heykəldən və postament qarşısında yerləşən fəvvarədən ibarətdir.

Heykəl 12 metr hündürlüyə malikdir. Şairin üzünün cizgiləri, alnında, qaşlarının arasındakı xəfif qırışlar onun gərgin fikirlərlə yaşadığı və həyəcan keçirdiyi anları təsvir edir.

Heykəltaraşların Füzuli heykəli 1963-cü ildə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalına layiq görülüb.



***Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin meydana baxan (soldan sağa) Məhəmməd Füzuli (heykəltaraş F. Əbdürrəhmanov)***

Füzulinin bədii obrazı ilk dəfə Azərbaycanın tanınmış heykəltaraşı Fuad Əbdürrəhmanov tərəfindən yaradılmışdır. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin binasının fasadı işlənərkən, fasadı bəzəyən heykəllərdən birinin Füzulinin heykəli olması nəzərdə tutulur və elan edilmiş müsabiqədə Fuad Əbdürrəhmanovun layihəsi qalib gəlir. Sənətkarın 1939-cu ildə muzey binası üçün yaratdığı Füzuli obrazı sonradan şairin xalq tərəfindən, daha sonra isə rəsmən qəbul edilmiş portreti kimi tanındı. Füzulinin heykəli hazırlanarkən heykəltaraşlar F. Əbdürrəhmanov tərəfindən yaradılmış obrazın ümumi cigilərinə sadiq qalmışlar.



***Məhəmməd Füzulinin Təbrizdəki Mənzəriyə meydanından yoxa çıxan heykəli***




***Məhəmməd Füzulinin 1970-ci ildə Füzuli şəhərinin mərkəzində ucaldılan heykəli***
*(heykəl erməni işğalı dövründə tamamilə yerlə-yeksan edilib)*




***Şirvan şəhərindəki Məhəmməd Füzuli adına istirahət və əyləncə parkındakı büstü***



***Məhəmməd Füzulinin qəbri***
***İraq, Məkkə şəhəri***

## MƏHƏMMƏD FÜZULİ ADINA BURAXILAN MARKALAR






## ŞAİRİN VƏFATININ 400 İLLİYİ MÜNASİBƏTİLƏ TƏSİS EDİLƏN GÜMÜŞ MEDAL



***M.Fizulinin vəfatının 400 illiyinə həsr olunmuş medal, 1956-ci il, Leninqrad Zərbxanası, tompak, d-60mm; 110,9 q***

## MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİYİ MÜNASİBƏTİ İLƏ BURAXILAN QIZIL YUBİLEY PUL NİŞANI




***1996-cı ildə ilk dəfə olaraq Mərkəzi Bank tərəfindən Azərbaycanın görkəmli şair və mütəfəkkiri Məhəmməd Füzulinin həyat və yaradıcılığının (1494-1556) 500 illiyi münasibəti ilə qızıl yubiley pul nişanı tədavülə buraxılmışdır.***

***Yubiley pul nişanı Böyük Britaniyanın "The Royal Mint" şirkətində istehsal olunmuşdur.***

***Yubiley pul nişanının üz tərəfində Məhəmməd Füzulinin siması, arxa hissəsində isə şairin məşhur "Leyli və Məcnun" poemasından bir səhnə əks etdirilmişdir.***

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU

***1950-ci ildə Akademiya nəzdində Respublika Əlyazmalar Fondu yaradılmış, 1986-cı ildə fondun bazasında Əlyazmalar İnstitutu təsis edilmişdir. 1996-cı ildə instituta Məhəmməd Füzulinin adı verilmişdir.***









## ŞƏMKİRDƏ MƏHƏMMƏD FÜZULİ ADINA MƏKTƏB-LİSEY












https://www.youtube.com/watch?v=QW7A82GcXzY

## MƏHƏMMƏD FÜZULİ KÜÇƏSİ

***Füzuli küçəsi - Azərbaycanın paytaxtı Bakı şəhərində cənub-qərbdən şimal-şərqə uzanan bir küçədir. Şəhərin mərkəzi küçələrindən biridir. Məşhur 16-cı əsrin şairi Məhəmməd Füzulinin adını daşıyır. Şərqdən küçəyə qədər Azadlıq prospekti və Cəfər Cabbarlı meydanı, qərbdə - Füzuli meydanı və cənubdan yeni qoyulmuş Qış bulvarına yaxınlaşır.***









# FÜZULİ RAYONU

**Füzuli rayonu** — Azərbaycan Respublikasında inzibati – ərazi vahidi. Mərkəzi Füzuli şəhəridir.

Bölgə inzibati ərazi vahidi kimi 1827-ci il sentyabrın 10-da yaradılmış və ilkin adı Qarabulaq olmuşdur. Rayon kimi 8 avqust 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılmışdır.

1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Karyagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

1993-cü ildə Füzuli rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. 1994-cü il Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi 1 şəhəri Horadiz və 21 kəndi Araz Zərgər, Araz Dilağarda, Araz Yağlıvənd, Birinci Mahmudlu, İkinci Mahmudlu, Əhmədbəyli, Murtuzalılar, Aşağı Kürdmahmudlu, Yuxarı Kürdmahmudlu, Alxanlı, Qarabağ, Bala Bəhmənli, Böyük Bəhmənli, Kərimbəyli, Şükürbəyli, Babı, Arayatılı, Mollaməhərrəmli, Əhmədalılar, Qazaxlar, Mirzənağılı işğaldan azad edilib.

2020-ci il 17 oktyabr tarixində Füzuli şəhəri işğaldan tam azad olunmuşdur.








# MƏHƏMMƏD FÜZULİ ADINA ŞİRVAN ŞƏHƏR MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKI













